AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ



# GƏLƏCƏYİMİZİ QORUYAQ: QEYRİ-FORMAL MƏŞĞULLUĞA SON QOYAQ!

BAKI - 2025

Bu bukletdə qeyri-formal məşğulluğun nə olduğu, onun zərərləri və bununla mübarizə yolları haqqında məlumat verilir.

## QEYRİ-FORMAL MƏŞĞULLUQ NƏDİR?



Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, əmək müqaviləsi (kontraktı) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də “Ailə kəndli təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsi **qeyri-formal məşğulluq hesab olunur.**

**Unutmayaq ki, qeyri-formal məşğulluq insanların gələcəkdə sabit gəlir, sosial müdafiə və hüquqlarından məhrum edilmələrinə səbəb olur. Bu neqativ halların qarşısının alınması üçün əmək münasibətləri rəsmiləşdirilməli, sahibkarlıq və ya digər fəaliyyət qeydiyyata alınmalıdır.**

# ƏMƏK MÜNASİBƏTLƏRİNİN RƏSMİLƏŞDİRİLMƏSİ

## ƏMƏK MÜQAVİLƏSİ HANSI HALDA HÜQUQİ QÜVVƏYƏ MİNMİŞ VƏ QÜVVƏDƏN DÜŞMÜŞ HESAB OLUNUR?



Əmək müqaviləsi və ya ona dəyişiklik tərəflərin gücləndirilmiş elektron imzası ilə imzalandıqda, son imzalanma tarixindən əmək müqaviləsi bağlanılmış və ya ona dəyişiklik edilmiş hesab olunur və hüquqi qüvvəyə minir.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə ilk dəfə bağlanılacaq əmək müqaviləsi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sistemində qeydə alınmış işçi və işəgötürən barədə əmək münasibətlərinə dair məlumatların elektron informasiya sisteminə ötürülməsi əsasında elektron sənəd formasında avtomatlaşdırılmış qaydada formalaşır və formalaşan tarixdən 3 (üç) iş günündən gec olmayaraq, tərəflərin gücləndirilmiş elektron imzası vasitəsilə imzalanır. Bu halda əmək müqaviləsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan hüquqi qüvvəyə minir.

# ƏMƏK MÜQAVİLƏSİ BAĞLANDIĞI HALDA İŞÇİNİN ƏLDƏ ETDİYİ HÜQUQLAR HANSILARDIR?



- minimum əməkhaqqı almaq hüququ;
- 8 saatlıq iş hüququ;
- əmək məzuniyyətindən istifadə hüququ;
- istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ;
- xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ;
- gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı;
- ipoteka və digər kreditləri almaq imkanı ;
- məhkəmədə hüquqların müdafiəsi.

# ƏMƏK MÜQAVİLƏSİ HÜQUQİ QÜVVƏYƏ MİNMƏDƏN MUZDLU İŞƏ CƏLB EDİLMİŞ İŞÇİLƏRƏ GÖRƏ HANSI MƏSULİYYƏT TƏDBİRLƏRİ TƏTBİQ EDİLİR?



İşəgötürən öz fəaliyyəti ilə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə, cərimə və sanksiyalara məruz qalmaması üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməli, müəyyən olunmuş qaydada əmək müqavilələrinin rəsmiləşdirilməsini təmin etməlidir.

- Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə - bu hala birinci dəfə yol verdikdə **2.000** manat, ikinci dəfə yol verdikdə **4.000** manat, üç və daha çox dəfə yol verdikdə **6.000** manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
- İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər **1.000** manatdan **2.000** manatadək miqdarda, vəzifəli şəxslər **3.000** manatdan **5.000** manatadək miqdarda, hüquqi şəxslər **20.000** manatdan **25.000** manatadək miqdarda inzibati cərimə edilir.
- Cinayət Məcəlləsinin 162-1.1-ci maddəsinə əsasən, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox ) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə

azadlığın məhdudlaşdırılması, yaxud 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllərin təkrar törədilməsi isə 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**QEYD:** Cinayət Məcəlləsinin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda, habelə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Şəxs bu qeyddə nəzərdə tutulmuş qaydada **cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.**

## SAHİBKARLIQ SUBYEKTLƏRİNİN VERGİ UÇOTUNA ALINMASI



Sahibkarlıq fəaliyyətini göstərən fiziki şəxslər vergi uçotuna alınmaq üçün **“Fiziki şəxsin uçotu haqqında ərizə”** ilə birlikdə şəxsiyyətini təsdiq edən sənədi, ərazi prinsipi nəzərə alınmaqla, vergi orqanına təqdim etməlidirlər.

## TORPAQ MÜLKİYYƏTÇİLƏRİNİN VƏ AİLƏ KƏNDLİ TƏSƏRRÜFATLARININ BAŞÇILARININ FƏALİYYƏTİNİN RƏSMİLƏŞDİRİLMƏSİ

Torpaq mülkiyyətçiləri uçota alınmaq üçün **"Fiziki şəxsin uçotu haqqında ərizə"** ilə birlikdə torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin (aktın, şəhadətnamənin, qeydiyyat vəsiqəsinin) və "Torpaq sahəsinin planı və ölçüsü"nün surətini, ailə kəndli təsərrüfatının başçıları uçota alınmaq üçün **"Fiziki şəxsin uçotu haqqında ərizə"** ilə birlikdə bələdiyyə orqanlarında təsərrüfatın uçota götürülməsi barədə onun başçısına və ailə üzvlərinə verilən vəsiqənin surətini, torpağın yerləşdiyi ərazi prinsipi nəzərə alınmaqla, vergi orqanına təqdim etməlidirlər.

## QEYRİ-FORMAL MƏŞĞULLUĞUN LEQALLAŞDIRILMASI SAHƏSİNDƏ NƏZARƏTİ HƏYATA KEÇİRƏN ORQANLAR HANSILARDIR?

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi.

## DÖVLƏT VERGİ XİDMƏTİNƏ ŞİKAYƏTETMƏ QAYDASI

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə **elektron formada:**

- "İnternet Vergi İdarəsi"ndə hər bir istifadəçi üçün ayrılmış elektron kabinet vasitəsilə;
- Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsindəki (www.taxes.gov.az) "Müraciət" bölməsinin "Onlayn müraciət" alt bölməsindən "Dövlət Vergi Xidmətinə müraciət" elektron xidməti vasitəsilə (https://www.taxes.gov.az/az/page/dovlet-vergi-xidmetine-muraciet).

---

**Poçt vasitəsilə:** AZ1029, Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Heydər Əliyev prospekti 155, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin poçt ünvanına məktub göndərilməklə.

---

**Şəxsən:** Dövlət Vergi Xidmətinin inzibati binasına gəlməklə (inzibati binada yerləşən poçt qutusu vasitəsilə).

---

**Telefon vasitəsilə:** İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzinin "195-1" telefon nömrəsi ilə əlaqə saxlamaqla şikayətinizi bildirə bilərsiniz.

**Gələcəyimizi özümüz qoruyaq:**
**qeyri-formal məşğulluğa YOX deyək!**

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

Ünvan: Azərbaycan Respublikası, AZ1029,
Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi,
Heydər Əliyev prospekti 155.
Telefon: (99412) 403 89 70
Elektron ünvan: office@taxes.gov.az
**www.taxes.gov.az**